# Milli təhsil standartlarımız müasir tələblərə uyğun şəxsiyyətlər yetişdirməyə imkan verir



**İmran HƏSƏNOV,**
*Naxçıvan Muxtar Respublikası Şərur Rayon Danyeri kənd Şah İsmayıl Xətai adına tam orta məktəbin tarix müəllimi*

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş təhsil islahatları ölkə təhsilinin dünya təhsil sisteminin standartlarına uyğunlaşdırılması ilə bərabər, təhsil sistemimizi də formalaşdırıb. Bu özlüyündə qloballaşmanın prioritetlərindən biridir.

Qloballaşmanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası ilə Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyası arasında bağlanmış ilk kredit sazişi əsasında ölkəmizdə kurikulum islahatına başlanıb.

1998-ci ildə qəbul edilmiş islahat proqramı əsasında 2006-cı il oktyabrın 30-da Azərbaycan Respublikası Nazirlər Kabinetinin 233 saylı qərarı ilə Milli Təhsil Konsepsiyası (Milli Kurikulum), 2010-cu ildə "Ümumi təhsilin dövlət standartları və proqramları" (kurikulumları), ölkə Prezidentinin müvafiq sərəncamları ilə 2013-cü il oktyabrın 24 -də "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", 2015-ci il yanvarın 19-da isə strategiyanın həyata keçirilməsi üçün fəaliyyət proqramı qəbul edilib. Təhsil sistemimizin təkmilləşdirilməsinə əvəzsiz töhfə verən kurikulum artıq səkkizinci ildir ki, müvəffəqiyyətlə tətbiq olunur.

Dünyanın aparıcı ölkələrində də tətbiq olunan bu mütərəqqi təhsil təcrübəsində interaktiv təlim yaradıcı təfəkkürə əsaslanır. Produktiv dərslə interaktiv dərsi bir neçə prizmadan fərqləndirmək olar. Əgər ənənəvi dərsdə subyekt-obyekt formulu dominantlıq təşkil edirdisə, fəal dərsdə subyekt-subyekt formulu əsasdır. Çünki interaktiv dərs demokratik xüsusiyyətləri ilə seçilir. Bu dərsdə əsas məqsəd şagirdlərin tədqiqatçılıq qabiliyyətlərini inkişaf etdirməkdir. Fəal təlimdə müəllim fasilitator, dizayner, bələdçi funksiyasını yerinə yetirir. Yəni müəllim informasiyanı şagirdə hazır şəkildə vermir, sadəcə ona istiqamət verir. Dizaynerlik-müəllimin proqram materiallarına konstruktiv, produktiv və kreativ formada yanaşaraq onu sadələşdirib şagirdlərə çatdırmasıdır (bu zaman temperament və qavrayışlar üzrə fərqlər də nəzərə alınmalıdır).

Bütün bu işlərin öhdəsindən gəlmək üçün müəllim daim öz elmi-nəzəri və elmi-metodiki səviyyəsini artırmalıdır.

Bundan başqa, interaktiv iş üsullarından olan rotasiya üsulundan istifadə etmək tədrisdə daha səmərəli nəticə əldə etməyə imkan verir. Xüsusən də şagirdlərin qabiliyyətlərinə uyğun əməli yazılar (esse, referat, təqdimat, icmal və s.) yazdırmaq, onların nitqinin yaradıcı təfəkkürünün inkişafında mühüm rol oynayır.

Tanrı vergisi ilə doğulmuş uşaqların qabiliyyətlərinin cilalanması pedaqoji sahənin ən mühüm amillərindən biridir.

Şagirdyönümlü və şəxsiyyətyönümlü mahiyyət daşıyan kurikulumda məqsəd şagirdlərə müasir kompetensiyaları (biliklər, bacarıqlar, vərdişlər, keyfiyyətlər, dəyərlər və s.) idrak taksomaniyasının 3 növü (məntiqi təfəkkür, tənqidi təfəkkür və yaradıcı təfəkkür) əsasında inkişaf etdirməkdir.

Bu şərtlər daxilində təhsil alan hazırkı Azərbaycan gəncləri gələcəkdə həm Azərbaycan, həm də dünya elminin fundamental sahələrində öz sözlərini deyə biləcəklər. Eyni zamanda yeni təhsil sistemi Azərbaycanın qlobal müstəvidə mövqeyinin güclənməsinə xidmət edərək beynəlxalq aləmə inteqrasiyasını sürətləndirəcək.